

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 211 (21.112)

5 noyabr 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Lora Takın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Azərbaycanda iqtisadi fəaliyyətin daha da optimallaşdırılması, xidmət sahəsində həyata keçirilən genişmiqyaslı islahatların, o cümlədən ölkəmizdə yaradılan "ASAN xidmət" tərəfindən görülən işlərin əhəmiyyəti vurğulandı. Bildirildi ki, Dünya Bankı Azərbaycanda həyata keçirilən iqtisadi layihələrə öz dəstəyini verməkdə maraqlıdır.

Söhbət zamanı Azərbaycanın müvafiq qurumları ilə Dünya Bankı arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Asiya İnkişaf Bankının prezidenti Takehiko Nakaonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## Qaz təsərrüfatı sahəsi payız-qış mövsümünə tam hazırdır

***Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatı mühüm əhəmiyyət daşıyır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikanın ən ucqar kəndlərində belə, mavi qaz şölələnir. "Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən mütəmadi olaraq təbii qaz təchizatının etibarlılığının və səmərəliliyinin artırılması istiqamətində ardıcıl tədbirlər görülür. İstehlakçıların fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi məqsədilə birliyin müvafiq tədbirlər planına əsasən, oktyabr ayı ərzində də qarşıda duran vəzifələr uğurla yerinə yetirilmişdir.***

Payız-qış mövsümündə təbii qaza olan tələbatın artması ilə əlaqədar olaraq, qaz nəqli sistemi daha artıq yüklənir. Buna görə də sistemin normal fəaliyyəti məqsədilə bir sıra işlər görülmüşdür. Belə ki, ərazilər üzrə bütün sistem boyu qazanalizatorlarla xətti nəzarət və texniki baxış keçirilmiş, yararsız vəziyyətdə olan 4 min 802 qaz sayğacı istismardan çıxarılaraq yenisi ilə əvəz olunmuşdur. Qaz təsərrüfatı şəbəkəsində 1492 halda sızma aşkarlanmış və aradan qaldırılmışdır. İstehlakçılarla bağlanmış müqavilələr əsasında təzyiqin normada saxlanılması üzrə gündüz və gecə rejimləri müəyyənləşdirilmişdir. Həmçinin sutka ərzində yerin və sərfların qeydiyyatının aparılması nəzarətə götürülmüşdür.

Avtomat qazpaylayıcı stansiyalarda avadanlıqlara texniki xidmət işləri qrafik üzrə müəyyən olunan vaxtlarda aparılmışdır. Qazın tozdan və başqa mexaniki qarışıqlardan təmizlənməsi üçün tətbiq olunan qaztəmizləyici seperator və süzgəclərə, qazın hərəkəti üzrə texnologiyaya uyğun qurulmuş bağlayıcı avadanlıqlara, təzyiq tənzimləyicilərinə, qoruyucu-atıcı-ayırıcı qapaqlara, qaz sərfölçən cihazlara, elektrokimyəvi mühafizə qurğularına və texnoloji avadanlıqlara zəruri texniki xidmət göstərilmiş, istismara yararsız detal və hissələr yenisi ilə əvəz olunmuşdur. Qaz nəqli sistemi üzərində olan bağlayıcı avadanlıqlar təftiş olunmuş, ehtiyac olunan hallarda onların üzərində cari təmir işləri aparılmış, istismara yararsız olanlar yenilənmişdir.

Birlik üzrə maşın-mexanizmlər, qaynaq avadanlıqlarının texniki vəziyyəti yoxlanılmış, çətin şəraitdə etibarlı işləməsi üçün tam yararlı vəziyyətə gətirilmişdir. Həmçinin qaz təsərrüfatında yeraltı qaz xətlərində korroziyaya uğrayan hissələrin yeni borularla əvəz olunması işləri də davam etdirilmişdir. İstismarda olan yeraltı yüksək və ortatəzyiqli magistral qaz kəmərlərinin üzərində quraşdırılmış katod elektrokimyəvi mühafizə qurğularına vaxtlı-vaxtında nəzarət olunmuşdur. Oktyabr ayı ərzində yeni tikilmiş 142 evə və digər obyektlərə qaz xətləri çəkilmişdir. Ümumilikdə, fərdi və ümumi yaşayış evlərinin qazlaşdırılması, korroziyaya uğramış boruların dəyişdirilməsi, yol-tikinti işlərinin aparılması, sukanalizasiya xətlərinin çəkilməsi və abadlaşdırma işləri ilə əlaqədar olaraq 10 min 312 paqonometr uzunluğunda boru xətti istifadə olunmuşdur.

Təbii qazdan səmərəli istifadə qaydalarının izah olunması, təhlükəsizlik tədbirlərinə əməl edilməsi və israfçılıq hallarına yol verilməməsi məqsədilə əhali arasında maarifləndirici söhbətlər oktyabr ayı ərzində də davam etdirilmişdir. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin nümayəndələri ilə birgə hərbi şəhərciyin sakinləri arasında maarifləndirici tədbir keçirilmiş, əhali və qeyri-əhali istehlakçıların qazdan təhlükəsiz istifadə qaydalarına riayət etməsi, dəm qazının yaranma səbəbləri və qeyri-standart qaz cihazlarından istifadə zamanı yaranan fəsadların aradan qaldırılması üzrə söhbətlər aparılmış, müəyyən tövsiyələr verilmişdir. Həmçinin aid qurumlarla birlikdə dəyirmi masalar təşkil olunmuş, maarifləndirici verilişlər hazırlanmışdır.

Kadr potensialının artırılması, qaz istismarı sahəsində çalışanların ixtisas dərəcəsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi də diqqətdə saxlanılır. Naxçıvan Regional Peşə Tədris Mərkəzində "qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər" peşəsinin növbəti III qrupu yaradılmış və şəhər, rayon qaz istismarı idarələrinin bir qrup işçisi kursa cəlb olunmuşdur.

Muxtar respublikada abonentlərin təbii qazla təmin olunması, xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

**"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti**

***Naxçıvan Muxtar Respublikasında həyata keçirilən uğurlu iqtisadi siyasət, nail olunan iqtisadi inkişaf bütün göstəriciləri ilə yanaşı, özünü əhali gəlirlərinin artırılmasında da göstərməkdədir. Stabil iqtisadi artım tempinin əldə olunması mühüm iqtisadi göstəricilər kimi, məşğulluq və əhali gəlirlərinin daim artırılmasına imkan verir.***

## Artan əhali gəlirləri iqtisadi yüksəlişin göstəricisidir

Muxtar respublikada azad sahibkarlığın dəstəklənməsi, kiçik biznesə göstərilən hərtərəfli dəstək məşğulluğun səviyyəsinin artırılmasına və əhali gəlirlərinə də öz təsirini göstərib. İqtisadi aktivliyin yüksəldilməsi məqsədilə sahibkarlara güzəştli şərtlərlə maliyyə dəstəyinin göstərilməsi ötən dövr ərzində də davam etdirilib, nəticədə, 2014-cü ilin yanvar-sentyabr ayları ərzində bank və kredit təşkilatları tərəfindən sahibkarlara verilmiş kreditlərin həcmi 2013-cü ilin müvafiq dövrünə nisbətən 25,4 faiz artaraq 41 milyon 636 min 471 manat təşkil edib. Bu isə, öz növbəsində, muxtar respublikada yeni biznes subyektlərinin yaranmasına stimul olub. Belə ki, 2014-cü ilin yanvar-sentyabr ayları ərzində muxtar respublikada 19 hüquqi və 1963 fiziki şəxs qeydiyyata alınıb.

Hazırda Naxçıvan Muxtar Respublikasında 116 növü ərzaq, 234 növü qeyri-ərzaq məhsulları olmaqla, 350 növdə məhsul istehsal olunmaqdadır. Regionda iqtisadi fəallıq yüksəlib əhalinin istehlak qabiliyyəti artdıqca bu göstərici üzrə də artım dinamikasını görməkdəyik. İstehsal müəssisələrinin artması, buna uyğun olaraq müvafiq xidmət sahələrinin də artması ilə əmək bazarında üstün rəqabətin genişlənməsi müşahidə olunur ki, bu da həmin sahədə keyfiyyət göstəricilərinin artmasına təkan verir. Bu isə, konkret olaraq, özünü əhali gəlirlərinin həcmində göstərir. Son statistik göstəricilərə nəzər salsaq, cari ilin ötən doqquz ayı ərzində muxtar respublikada əhali gəlirlərinin bir il öncəyə nisbətdə 2,9 faiz artaraq 1 milyard 226 milyon 742 min manata, onun hər bir nəfərə düşən həcminin isə 1,4 faizlik artımla 2806 manata çatdığını görərik. Bu dövr ərzində bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı məbləğinin 2013-cü ilin müvafiq dövründəki göstərici ilə müqayisədə 3,3 faiz artaraq 388,1 manata çatması regionda aparılan səmərəli məşğulluq siyasəti sayəsində mümkün olub.

Muxtar respublikada əmək bazarının tənzimlənməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən digər işlər regionda yeni iş yerlərinin yaradılmasına öz töhfəsini verib. Belə ki, 2014-cü ilin yanvar-sentyabr aylarında yaradılmış 2703 yeni iş yeri, təqribən, bu qədər ailənin yeni gəlir mənbəyi deməkdir.

**Əli CABBAROV**

## Avtomatlaşdırılmış qaydada əmək pensiyalarının təyinatına başlanılıb

***Müasir standartlara uyğun avtomatlaşdırılmış pensiya təyinatı Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2008-ci il 30 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı"nda əksini tapmış mühüm vəzifələrdəndir. Ölkə başçısı tərəfindən qanunvericiliyə edilən ardıcıl dəyişikliklərlə pensiya təyinatı alqoritminin tam sadələşdirilməsi, ödənilən sosial sığorta haqlarının fərdi uçotu, sığorta-pensiya sistemində Avropa standartlarına uyğun müasir avtomatlaşdırılmış infrastrukturun qurulması və Dövlət Sosial Müdafiə Fondunun serverlərində nadir elektron məlumat bazalarının yaradılması kimi kompleks tədbirlər pensiyaların avtomatlaşdırılmış qaydada vahid mərkəzdən təyinatına başlanılmasına şərait yaradıb.***

"Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet saytının (***www.dsmf.nakhchivan.az***) yaradılması məcburi dövlət sosial sığorta haqqı ödəyicilərinin məcburi dövlət sosial sığorta haqlarını plastik bankomat kartları vasitəsi ilə və ya banklarda nağd qaydada onlayn ödənilməsinə, vətəndaşların fonda elektron müraciət etmələrinə və digər elektron xidmətlərin fəaliyyət göstərməsinə geniş imkanlar açıb.

Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fonduna avtomatlaşdırılmış pensiya təyinatı sisteminə keçidin təmin olunması üçün tədbirlərin icrasının müəyyən olunmuş qaydada davam etdirilməsi tapşırılıb. Verilən tapşırığın icrası məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən ardıcıl olaraq müvafiq işlər görülüb, muxtar respublika üzrə sığortaolunanların müvafiq məlumatlarının fərdi uçot sistemində olan fərdi şəxsi hesablarına işlənilməsi və avtomatlaşdırılmış pensiya təyinatı aparılması üçün müasir standartlara cavab verən xüsusi proqram təminatının işə salınması prosesi başa çatdırılaraq 2014-cü ilin noyabr ayından etibarən fond tərəfindən avtomatlaşdırılmış qaydada əmək pensiyalarının təyinatına başlanılıb.

Muxtar respublika ərazisində yaşayan və pensiya yaşına çatmış hər bir vətəndaş heç bir sənəd toplamadan, vaxt itirmədən fondun Pensiya şöbəsində yaradılmış avtomatlaşdırılmış pensiya təyinatı xidmətinə **(+99436) 550-59-79** nömrəsinə zəng etməklə real vaxt rejimində dərhal əmək pensiyası təyinatı hüququnu reallaşdırmaq imkanına malikdir. Avtomatlaşdırılmış qaydada əmək pensiyası təyinatı aparılan hər bir vətəndaşa bir neçə dəqiqə ərzində ona təyin olunan pensiyanın məbləği və öz plastik bankomat kartını ala biləcəyi müvəkkil bankın filialının ünvanı bildirilir. Bu, sistemdə şəffaflığın daha da artmasına, əlavə vaxt itkisinin qarşısının alınmasına, vətəndaşlarla Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları arasında münasibətlərin sadələşdirilməsinə, insan amilinin rolunun son dərəcə azaldılmasına şərait yaradır.

Avtomatlaşdırılmış pensiya təyinatının aparılması üçün **(+99436) 550-59-79** nömrəsinə zəng edərək müraciət edən şəxsin yalnız şəxsiyyət vəsiqəsinin seriya nömrəsini bildirməsi kifayətdir. Bu məlumat dərhal Dövlət Sosial Müdafiə Fondunda yaradılmış xüsusi proqram təminatına daxil edilir və həmin göstəricilərin sistemdə düzgünlüyü təsdiqləndiyi halda fondun fərdi məlumatlar bazasına inteqrə edilərək vətəndaşın 1 yanvar 2006-cı il tarixədək olan iş stajı və 1 yanvar 2006-cı il tarixdən ödədiyi məcburi dövlət sosial sığorta haqlarından avtomatlaşdırılmış qaydada əmək pensiyasının təyinatı aparılır. Elə həmin vaxt vətəndaşa ona təyin olunmuş əmək pensiyasının məbləği bildirilir. Eyni zamanda vətəndaşın ünvanına bununla bağlı xüsusi rəsmi bildiriş də göndərilir.

Hal-hazırda ilkin mərhələdə avtomatlaşdırılmış pensiya təyinatı yaşa görə əmək-pensiya hüququ yaranmış əmək pensiyaçılarına tətbiq edilir. Gələcəkdə avtomatlaşdırılmış pensiya təyinatı əlilliyə və ailə başçısını itirməyə görə əmək pensiyası hüququ yaranan pensiyaçılara da şamil ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas məktəblərinə, eləcə də Heydər Əliyev adına Hərbi Liseyə qəbulun nəticələri

Naxçıvan Muxtar Respublikasında yeni təhsil müəssisələrinin tikintisi və ya əsaslı şəkildə yenidən qurulması, ümumtəhsil məktəblərinin ən müasir informasiya və kommunikasiya texnologiyaları ilə təminatı, eyni zamanda təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində davamlı işlər görülür.

Tikilən və ya əsaslı şəkildə yenidən qurulan təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirilmiş, məktəblər ən müasir informasiya və kommunikasiya avadanlıqları ilə təchiz olunmuşdur. Hazırda ümumtəhsil məktəblərində 600-ə yaxın elektron lövhə quraşdırılmış, 3409 kompüter verilmiş və onların 84 faizi internet şəbəkəsinə qoşulmuşdur. Eyni zamanda ümumtəhsil məktəblərində təhsil alan əlaçı şagirdlərdən 773 nəfərinə Ali Məclisin Sədri tərəfindən kompüter dəstləri və noutbuklar hədiyyə olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası nəticəsində Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr yaradılır ki, bu da şagirdlərin biliklərinin və milli-mənəvi irsimizə marağının artırılmasında mühüm rol oynayır. Sentyabr ayından Heydər Əliyev Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə ümumtəhsil məktəbləri arasında canlı bağlantı yaradılaraq dərslər keçilmişdir.

Muxtar respublikada həyata keçirilən təhsil islahatı, keyfiyyət dəyişiklikləri, məktəblərin müasir elektron tədris avadanlıqları ilə təmin olunması son illər ərzində şagirdlərin təhsilə marağını daha da artırmışdır. Təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, 2014-cü ildə məktəbi bitirən məzunlardan 14-ü "Qızıl", 13-ü isə "Gümüş" medala layiq görülmüşdür. Həmin məzunlar onlara göstərilən etimadı doğrultmuş, 3-ü 500-600, 12-si 600-650, 12-si isə 650-700 intervalında nəticə göstərmişdir. Məzunlardan 2-si Prezident təqaüdünə layiq görülmüşdür.

## Ali təhsil müəssisələrinə qəbul barədə

Muxtar respublikada ali və orta ixtisas məktəblərinə sənədvermə və qəbulun nəticələri ilbəil həm keyfiyyətcə, həm də kəmiyyətcə artır. 2014-cü ildə XI sinfi bitirən 3993 məzundan 3115-i, yəni məzunların 78 faizi ali və orta ixtisas məktəblərinə sənəd vermişdir. Sənəd verənlərdən 1557-si və ya 50 faizi oğlan, 1558-i və ya 50 faizi isə qızlar olmuşdur. Əvvəlki illərin məzunları ilə birlikdə sənəd verənlərin ümumi sayı 5664 nəfərə çatmışdır.

Ali və orta ixtisas məktəblərinə keçirilən qəbul imtahanlarında iştirak edən məzunlardan 1725-i, yəni sənəd verənlərin 55,4 faizi tələbə adını qazanmışdır. Onlardan 797-si və ya 46,2 faizi oğlanlar, 928-i və ya 53,8 faizi isə qızlardır. Ali məktəblərə qəbul olan məzunların 347-si imtahanlarda daha yüksək nəticə göstərərək 500-700 intervalında bal toplamışdır. Bu da ali məktəblərə qəbul olanların 20,1 faizini təşkil edir.

Qəbulda yüksək bal toplayanların içərisində qızların sayı ilbəil artır. Belə ki, yüksək nəticə göstərən qızların sayı 2013-cü ildə 183, 2014-cü ildə isə 194 nəfər olmuşdur.

Muxtar respublikada ali təhsil müəssisələri üçün yaradılan şəraitin nəticəsidir ki, yüksək bal toplayan abituriyentlər ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrində oxumağa daha çox üstünlük vermişlər. Belə ki, yüksək bal toplayan abituriyentlərdən 156-sı Naxçıvan Dövlət Universitetinə, 33-ü Azərbaycan İqtisad Universitetinə, 33-ü Bakı Dövlət Universitetinə, 26-sı Azərbaycan Tibb Universitetinə, 21-i Azərbaycan Dillər Universitetinə, 16-sı Azərbaycan Diplomatik Akademiyasına, 16-sı Qafqaz Universitetinə, 11-i Polis Akademiyasına, 9-u Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına, 8-i Azərbaycan Dövlət Neft Akademiyasına, 7-si Milli Aviasiya Akademiyasına, 4-ü Azərbaycan Texniki Universitetinə, 2-si Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasına, 1-i Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, 1-i Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasına, 1-i Bakı Slavyan Universitetinə, 1-i Azərbaycan Memarlıq və İnşaat Universitetinə, 1-i Bakı Ali Neft Məktəbinə, 21-i isə Türkiyə Respublikasının müxtəlif universitetlərinə qəbul olmuşlar.

Muxtar respublikanın ümumtəhsil məktəblərindən ayrı-ayrı ali təhsil müəssisələrinə şəhər və rayonlar üzrə qəbul aşağıdakı kimi olmuşdur:

## 2014-2015-ci tədris ili üçün muxtar respublikanın şəhər və rayonlarından, eləcə də Təhsil Nazirliyinə birbaşa tabe olan ümumtəhsil məktəblərindən ali məktəblərə qəbulun statistik göstəriciləri

| S №-si | Ali təhsil müəssisələrinin adı | Şəhər və rayon Təhsil şöbələri və Təhsil Nazirliyinə birbaşa tabe olan məktəblər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Naxçıvan şəhəri | Şərur rayonu | Babək rayonu | Ordubad rayonu | Culfa rayonu | Şahbuz rayonu | Kəngərli rayonu | Sədərək rayonu | Təhsil Nazirliyinə birbaşa tabe olan məktəblər |
| 1. | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası | | | | | | | | | 1 |
| 2. | Bakı Ali Neft Məktəbi | | | | | | | | | 1 |
| 3. | Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | 2 | | | | | | | | 6 |
| 4. | Azərbaycan Tibb Universiteti | 2 | 4 | 3 | 1 | 7 | | | | 11 |
| 5. | Azərbaycan Diplomatik Akademiyası | 2 | 3 | | 2 | 1 | | | | 9 |
| 6. | Azərbaycan Dövlət Neft Akademiyası | 6 | 7 | | 2 | 1 | | 3 | 1 | 3 |
| 7. | Naxçıvan Dövlət Universiteti | 201 | 112 | 137 | 49 | 71 | 49 | 49 | 8 | 62 |
| 8. | Azərbaycan Dillər Universiteti | 10 | 9 | 8 | 5 | 2 | 1 | 3 | 2 | 9 |
| 9. | Bakı Dövlət Universiteti | 14 | 12 | 5 | 15 | 9 | 4 | 2 | 2 | 17 |
| 10. | Azərbaycan Dövlət İqtisad Universiteti | 14 | 9 | 11 | 7 | 4 | 1 | 3 | 4 | 16 |
| 11. | Qafqaz Universiteti | 1 | | 3 | 2 | 1 | | 1 | 1 | 18 |
| 12. | Azərbaycan Dövlət Pedaqoji Universiteti | 5 | 10 | 2 | 7 | 2 | 4 | 2 | 4 | 2 |
| 13. | Azərbaycan Turizm İnstitutu | | | | 1 | | | | | 1 |
| 14. | Bakı Slavyan Universiteti | 6 | 2 | | 2 | | | | | |
| 15. | Gəncə Dövlət Universiteti | 4 | 2 | | | | | | | |
| 16. | Azərbaycan Texniki Universiteti | 5 | 11 | 7 | 6 | 6 | 2 | 1 | | 2 |
| 17. | Azərbaycan Müəllimlər İnstitutu | | 5 | 1 | | | | 1 | | |
| 18. | Azərbaycan Memarlıq və İnşaat Universiteti | 3 | 5 | 4 | 3 | 1 | | | 1 | 4 |
| 19. | Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri) | 2 | 1 | 1 | | 1 | 1 | | | 1 |
| 20. | Naxçıvan Müəllimlər İnstitutu | 37 | 39 | 43 | 22 | 41 | 16 | 14 | | 6 |
| 21. | Lənkəran Dövlət Universiteti | | 1 | 2 | | | | 1 | | |
| 22. | Xəzər Universiteti | | 1 | | 2 | 1 | | 1 | 1 | |
| 23. | Mingəçevir Politexnik İnstitutu | | | | | | | | 1 | |
| 24. | Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti | | | | 1 | 1 | | | | |
| 25. | Sumqayıt Dövlət Universiteti | 2 | 2 | | 3 | 3 | | | 1 | |
| 26. | Bakı Qızlar Universiteti | | | | 1 | | | | | |
| 27. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | 1 | 1 | | | | | |
| 28. | Naxçıvan Özəl Universiteti | 47 | 43 | 31 | 20 | 20 | 12 | 18 | 4 | 3 |
| 29. | Bakı Biznes Universiteti | 3 | | | 1 | | | | | |
| 30. | Bakı Avrasiya Universiteti | | 1 | | | | | | | |
| 31. | "Azərbaycan" Universiteti | | | 1 | 2 | | | | 3 | |
| 32. | Bakı "Asiya" Universiteti | | 1 | 1 | 1 | | | | | |
| 33. | Azərbaycan Kooperasiya Universiteti | 2 | 1 | | | | 1 | | | |
| 34. | Qərb Universiteti | 2 | 1 | | | | | | | |
| 35. | Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri) | | 2 | | 1 | | | | | |
| 36. | "Odlar Yurdu" Universiteti | 2 | 1 | 1 | | 2 | | | 1 | |
| 37. | Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universiteti | | | | | 2 | | | 1 | |
| 38. | Sərhəd Qoşunları Akademiyası | 1 | 1 | 2 | 4 | 2 | | 1 | | |
| 39. | Polis Akademiyası | 4 | 5 | 1 | | 5 | 1 | | | 2 |
| 40. | Milli Aviasiya Akademiyası | 2 | | 1 | 2 | 4 | 1 | 1 | | 6 |
| 41. | Azərbaycan Fövqəladə Hallar Nazirliyi Akademiyası | 1 | 2 | 2 | | 1 | | | | |
| 42. | Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası | 1 | 6 | 5 | | 1 | 2 | 1 | | |
| 43. | Azərbaycan Dəniz Akademiyası | 1 | 1 | | 1 | | | | | 1 |
| 44. | Milli Təhlükəsizlik Akademiyası | | 1 | | | | 1 | | | 1 |
| 45. | Azərbaycan Dövlət Rəssamlıq Akademiyası | | 1 | | | | | | | |
| | Cəmi: | 382 | 302 | 273 | 164 | 189 | 96 | 102 | 35 | 182 |

Yaradılmış şəraitin və bu sahədə aparılan əməli tədbirlərin nəticəsidir ki, muxtar respublikada fəaliyyət göstərən Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və Naxçıvan Özəl Universiteti Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən müəyyənləşdirilən ali təhsil müəssisələrinin reytinq cədvəlinə əsasən, göstəricilərini ilbəil yüksəldirlər. Belə ki, reytinq cədvəlinə görə, Naxçıvan Dövlət Universiteti 2014-cü ildə ötən ilə nisbətən 9-cu yerdən 7-ci yerə, Naxçıvan Müəllimlər İnstitutu 23-cü yerdən 20-ci yerə, Naxçıvan Özəl Universiteti isə 30-cu yerdən 28-ci yerə yüksəlmişdir.

## Orta ixtisas təhsili müəssisələrinə qəbul barədə

Ümumtəhsil məktəbləri ilə yanaşı, orta ixtisas məktəblərində də təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə informasiya texnologiyalarının tətbiqi diqqətdə saxlanılmış, Naxçıvan Dövlət Texniki Kollecinə 20, Naxçıvan Musiqi Kollecinə 15, Naxçıvan Tibb Kollecinə isə 33 kompüter verilmişdir. Verilmiş kompüterlərin hamısı internet şəbəkəsinə qoşulmuşdur. Eyni zamanda Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Texniki Kollecinin hər birində 5, Naxçıvan Tibb Kollecində isə 6 elektron lövhə quraşdırılmışdır.

Muxtar respublikada orta ixtisas təhsili müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, qəbul planının artırılması, yeni ixtisasların yaradılması şagirdlərdə bu sahəyə marağı xeyli artırmışdır. Belə ki, 2014-2015-ci tədris ili üçün ümumi orta təhsil bazasından orta ixtisas məktəblərinə muxtar respublika üzrə sənəd verən 1760 nəfərdən 909-u 2014-cü ildə IX sinfi bitirənlərdir.

2014-cü ildə 519 nəfər orta ixtisas məktəblərinə qəbul olunmuşdur ki, bunun da 255-i ümumi orta təhsil bazasından, 264-ü isə tam orta təhsil bazasından olan məzunlardır. Məzunların orta ixtisas təhsili müəssisələri üzrə qəbulu aşağıdakı kimi olmuşdur:

## 2014-2015-ci tədris ili üçün şəhər və rayonlardan, eləcə də Təhsil Nazirliyinə birbaşa tabe olan ümumtəhsil məktəblərindən orta ixtisas məktəblərinə qəbulun statistik göstəriciləri (IX sinif bazasından)

| № | Orta ixtisas məktəbinin adı | Şəhər və rayon Təhsil şöbələri və təhsil müəssisələri | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Naxçıvan | Şərur | Babək | Ordubad | Culfa | Şahbuz | Kəngərli | Sədərək | Təhsil Nazirliyinə birbaşa tabe olan məktəblər |
| 1. | Naxçıvan Dövlət Texniki Kolleci | 22 | 25 | 12 | 13 | 7 | 9 | 6 | 2 | 3 |
| 2. | Naxçıvan Musiqi Kolleci | 35 | 9 | 18 | 4 | 8 | 8 | 2 | | 6 |
| 3. | Bakı Biznes və Kooperasiya Kolleci | 3 | 15 | | | | | | | |
| 4. | Bakı Dövlət Texniki Kolleci | 2 | 3 | | 3 | 2 | 1 | | | |
| 5. | Sumqayıt Dövlət Texniki Kolleci | 1 | 3 | | | | 1 | | | |
| 6. | Bakı Sənaye Pedaqoji Texnikumu | 1 | | | 4 | | | | | |
| 7. | Bakı Sənaye Kolleci | | 4 | | | | | | | |
| 8. | Bakı Dövlət Sosial İqtisadi Kolleci | | 4 | | | | | | | |
| 9. | Mingəçevir Turizm Kolleci | 1 | 1 | | | | | | | |
| 10. | Bakı Neft Energetika Kolleci | | | 1 | | | | | 1 | |
| 11. | Azərbaycan Maliyyə İqtisad Kolleci | | 1 | | | 1 | | | | |
| 12. | Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci | | | | | 1 | 1 | | | |
| 13. | Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci | | | 1 | 1 | | | | | |
| 14. | Bakı İdarəetmə və Texnologiya Kolleci | | | | 1 | | | | 1 | |
| 15. | Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci | | | | 1 | | | | | |
| 16. | Bakı Qida Sənayesi Kolleci | | | | | 1 | | | | |
| 17. | Bakı Kompüter Kolleci | | | | | 1 | | | | |
| 18. | Astara Pedaqoji Kolleci | | | | | 1 | | | | |
| 19. | Sumqayıt Musiqi Kolleci | | | | | 1 | | | | |
| 20. | Bərdə Dövlət Texniki Kolleci | | | 1 | | | | | | |
| 21. | Bakı Gömrük Kolleci | | | 1 | | | | | | |
| Cəmi: | | 65 | 65 | 34 | 27 | 23 | 20 | 8 | 4 | 9 |

## 2014-2015-ci tədris ili üçün şəhər və rayonlardan, eləcə də Təhsil Nazirliyinə birbaşa tabe olan ümumtəhsil məktəblərindən orta ixtisas məktəblərinə qəbulun statistik göstəriciləri (XI sinif bazasından)

| № | Orta ixtisas məktəbinin adı | Şəhər və rayon Təhsil şöbələri və təhsil müəssisələri | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Naxçıvan | Şərur | Babək | Ordubad | Culfa | Şahbuz | Kəngərli | Sədərək | Təhsil Nazirliyinə birbaşa tabe olan məktəblər |
| 1. | Naxçıvan Tibb Kolleci | 29 | 17 | 37 | 9 | 19 | 17 | 7 | | 1 |
| 2. | Bakı Biznes və Kooperasiya Kolleci | | 17 | 2 | 2 | | 2 | 3 | | |
| 3. | Naxçıvan Dövlət Texniki Kolleci | 4 | 4 | 3 | | | | | | |
| 4. | Bakı Kompüter Kolleci | | 4 | 1 | 3 | 1 | | | | |
| 5. | Bakı Sənaye Pedaqoji Texnikumu | | 5 | | 2 | 1 | | | | |
| 6. | Bakı Dövlət Texniki Kolleci | 1 | 3 | | 2 | 1 | | | | |
| 7. | Sumqayıt Dövlət Texniki Kolleci | | 6 | | | | | | | |
| 8. | Bakı Dövlət Sosial İqtisadi Kolleci | | 1 | 1 | | 2 | | 2 | | |
| 9. | Bakı Qida Sənayesi Kolleci | | | | | 5 | | 1 | | |
| 10. | Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci | 1 | 1 | | 1 | 1 | | 1 | | |
| 11. | Mingəçevir Turizm Kolleci | 1 | | | | 3 | | | | |
| 12. | Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci | 1 | | | 2 | 1 | | | | |
| 13. | 2№-li Bakı baza Tibb Kolleci | | | | 2 | 2 | | | | |
| 14. | Gəncə Texniki Kolleci | 1 | 1 | | | 1 | | | 1 | |
| 15. | Naxçıvan Musiqi Kolleci | 3 | | | | | | | | |
| 16. | Şamaxı Dövlət Sosial İqtisadi Kolleci | | 2 | | | | | | 1 | |
| 17. | Azərbaycan Dəmiryol Sənayesi Kolleci | 1 | 1 | | | | | 1 | | |
| 18. | Azərbaycan Memarlıq və İnşaat Kolleci | | | | 1 | 1 | | | | |

| № | Orta ixtisas məktəbinin adı | Şəhər və rayon Təhsil şöbələri və təhsil müəssisələri | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Naxçıvan | Şərur | Babək | Ordubad | Culfa | Şahbuz | Kəngərli | Sədərək | Təhsil Nazirliyinə birbaşa tabe olan məktəblər |
| 19. | Azərbaycan Pedaqoji Kolleci | | | | | 1 | | 1 | | |
| 20. | Bakı Neft Energetika Kolleci | | | | | | | 1 | 1 | |
| 21. | Bakı Sənaye Kolleci | 1 | | | | | | | | |
| 22. | Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci | | | | 1 | | | | | |
| 23. | Bakı İdarəetmə və Texnologiya Kolleci | | 1 | | | | | | | |
| 24. | Gəncə Humanitar Kolleci | | | | | 1 | | | | |
| 25. | Bakı İnşaat Kolleci | 1 | | | | | | | | |
| 26. | Sabirabad Dövlət Sosial İqtisadi Kolleci | | | 1 | | | | | | |
| 27. | Bakı Politexnik Kolleci | | | 1 | | | | | | |
| 28. | Göyçay İdarəetmə və Texnologiya Kolleci | | 1 | | | | | | | |
| 29. | Sumqayıt Tibb Kolleci | | 1 | | | | | | | |
| 30. | Bakı Humanitar Kolleci | | 1 | | | | | | | |
| 31. | Mingəçevir Texniki Kolleci | | | 1 | | | | | | |
| 32. | Lənkəran Dövlət Humanitar Kolleci | | | | | 1 | | | | |
| 33. | 1№-li Bakı baza Tibb Kolleci | | | | | 1 | | | | |
| | Cəmi: | 44 | 66 | 47 | 25 | 42 | 19 | 17 | 3 | 1 |

## Hərbi təhsil barədə

Naxçıvan Muxtar Respublikasında məktəblilərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi daim diqqət mərkəzində saxlanmışdır. Belə ki, muxtar respublikada Heydər Əliyev adına Hərbi Liseyin yaradılması, təhsil müəssisələrində hərbi kabinələrin fəaliyyət göstərməsi, onlara lazımi avadanlıqların verilməsi, hər il hərbi rəhbərlərin toplantısının keçirilməsi, onların xüsusi hərbi geyim forması ilə təmin olunması, eyni zamanda bu sahə üzrə həyata keçirilən müxtəlif tədbirlər, yarış və müsabiqələr məktəbli gənclərin ibtidai hərbi hazırlığına, vətənpərvərlik hissinin gücləndirilməsinə müsbət təsir göstərmiş, hərbi təhsilə marağı xeyli artırmışdır. Nəticədə, 2014-cü ildə məzunlardan 174-ü xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd vermiş, onlardan 40-ı tələbə adını qazanmışdır. Heydər Əliyev adına Hərbi Liseyə isə qəbul üçün sənəd vermiş 1020 məzundan 255-i liseyin kursantı olmuşdur.

Hərbi Liseyə muxtar respublikanın şəhər və rayonlarından qəbul aşağıdakı kimi olmuşdur:

## 2014-2015-ci tədris ili üçün şəhər və rayonlar üzrə ümumtəhsil məktəblərindən Heydər Əliyev adına Hərbi Liseyə qəbulun statistik göstəriciləri

| № | Şəhər və rayonlar | Heydər Əliyev adına Hərbi Liseyə qəbul olanların sayı |
|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 43 |
| 2. | Şərur rayonu | 49 |
| 3. | Babək rayonu | 38 |
| 4. | Ordubad rayonu | 23 |
| 5. | Culfa rayonu | 40 |
| 6. | Kəngərli rayonu | 26 |
| 7. | Şahbuz rayonu | 15 |
| 8. | Sədərək rayonu | 1 |
| 9. | Azərbaycanın digər rayonlarından | 20 |
| | Cəmi: | 255 |

2014-cü ildə Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 218 nəfəri ölkəmizin müxtəlif ali hərbi məktəblərinə qəbul olmuşdur. Onlardan 190-ı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində, 10-u Daxili Qoşunların Ali Hərbi Məktəbində, 15-i isə Dövlət Sərhəd Akademiyasında təhsillərini davam etdirirlər.

## Yekun

2014-cü ildə məzunlardan 1685-i ali təhsil müəssisələrinə, 258-i müxtəlif ali hərbi və xüsusi təyinatlı ali məktəblərə, 264-ü isə tam orta təhsil bazasından orta ixtisas məktəblərinə qəbul olunmuşlar. Tam orta təhsil bazasından ali və orta ixtisas məktəblərinə qəbul olan məzunların sayı 2207 olmuşdur ki, bu da sənəd verənlərin 66 faizini təşkil edir. Ötən illə müqayisədə ali və orta ixtisas məktəblərinə qəbulda 6 faiz artım olmuşdur.

Muxtar respublikada təhsilin dövlət qayğısı ilə əhatə edilməsi əldə olunan uğurlu nəticələrin gələcək illərdə də davamlı xarakter alacağını şərtləndirir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Aparatı**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2014-cü ilin oktyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1232 | 73,9 | 74,3 | 100,5 |
| 2. | Culfa rayonu | 1135 | 68,1 | 68,4 | 100,4 |
| 3. | Şahbuz rayonu | 465 | 27,9 | 28,0 | 100,4 |
| 4. | Kəngərli rayonu | 631 | 37,9 | 38,0 | 100,3 |
| 5. | Naxçıvan şəhəri | 3250 | 195,0 | 195,0 | 100,0 |
| 6. | Şərur rayonu | 1940 | 116,4 | 116,4 | 100,0 |
| 7. | Babək rayonu | 1810 | 108,6 | 108,6 | 100,0 |
| 8. | Sədərək rayonu | 350 | 21,0 | 21,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 19223 | 1153,4 | 1153,3 | 100,0 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **30036** | **1802,2** | **1803,0** | **100,0** |

**Qeyd:** Oktyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 30 milyon 36 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 802 min 200 manat olmuş, cəmi 1 milyon 803 min manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## *Aşura günündə* toplanan qan insanların sağlamlığı üçün istifadə ediləcək

***Artıq bir neçə ildir ki, ölkəmizdə Aşura günü qanvermə aksiyaları keçirilməkdədir və bu, təqdirəlayiq haldır. Bu yolla həm dindarların bədənindən qan çıxarmaq arzusu sivil qaydada reallaşır, həm də dindarlar verdikləri qanla qana ehtiyacı olan xəstələrin həyatını xilas edir, savab qazanırlar.***

Son bir neçə ildə olduğu kimi, bu il də həm Naxçıvan şəhərində, həm də ayrı-ayrı rayonlarda Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin təşkilatçılığı ilə Aşura günü qana ehtiyacı olan xəstələrə yardım məqsədilə könüllü qanvermə aksiyaları keçirilib.

Dünən keçirilən Aşura mərasimlərində günorta saatlarınadək Naxçıvan Muxtar Respublika Xəstəxanasının, Diaqnostika-Müalicə Mərkəzinin, Doğum Mərkəzinin və rayon mərkəzi xəstəxanalarının həkim briqadaları tərəfindən muxtar respublika üzrə 516 nəfərdən 165,5 litr qan tədarük olunub.

Əvvəlcə donorlardan arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. Bir neçə saat davam edən aksiyada donorlardan götürülən qanın qrupları müəyyənləşdirilərək birli və ikili torbalarda qan bankına təhvil verilib. Beləliklə, qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır. Aşura günündə tədarük olunan qandan və ondan hazırlanmış preparatlardan hemofiliyalı və talassemiyalı, həmçinin qana ehtiyacı olan bütün digər xəstələrin müalicəsində istifadə olunacaq və ehtiyacı olan xəstələrin həyatı xilas ediləcəkdir.

Bir köməksizə yardım etmək, bir kəsin həyatını xilas etmək isə savabların ən üstünlərindəndir.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 923